## İmadəddin Nəsimiyə təzmin

Həq ta ki yar oldu mənə, sər ta qədəm yar olmuşam,
Ta görmüşəm didarını, müştaqi-didar olmuşam.

Neyçün camalından cüda eylər məni ta Suratək,
Məhşərdəyəm sanki, yanar cismim, gözü zar olmuşam.

Bir ömrü ayru düşmüşəm hüsnündən ey mahi Liqa,
Çün bu səbəbdəndir iki aləmdə səyyar olmuşam.

Mən Səndənəm, həm Səndəyəm, Səndən soruşsunlar məni,
Mən həm Sənin kölgəndənəm, isminlə mən var olmuşam.

Mən hər qədəm qoyduqda torpaqda izim ağlar mənim,
Olsam əgər gül, bu sitəmdən bil ki gülxar olmuşam.

İstərsən et ədnü behişt içrə güli rəna məni,
Sənsiz ki olmaz cənnətim, mən Səndə gülzar olmuşam.

Söylər Nəsimi adəta: "sirri ənəlhaq söylərəm",
Şükr eylə, ey Mehri, bu gün elmiylə huşyar olmuşam.



## İmadəddin Nəsimiyə təzmin

Apardı könlümü məndən bu gün ol cənnətin huri,
Götür pərdə camalından ki sənsən eynimin nuri.

Haqiqət aşiqi oldum, görərsəm lövhi-məhfuzi,
Elə bir feyzdar ollam ki bilsəm haqqi mənsuri.

Lədünü eşqə yüksəldir ilahi fərmanı gər ki,
Quranu tövratu incil, oxursam həm də məzmuri.

Əzəldən yüksəlib ruhum mələkutü ol əflakə,
Mənə haq fərmanın eylər, silinməz bunca məqduri.

Elə ki ayrı düşdü ol nigarından könül bil ki,
Gəzir kuyində ol yarın dəmadəm Mehri məfkuri.

Vüsalə Vətənxan Mehri